ISSN 2181-922X

TIL VA MADANIYAT

UZBEKISTAN

LANGUAGE & CULTURE

O‘ZBEKISTON

2026 Vol. 1

tsuull.uz
uzlc.tsuull.uz

ISSN 2181-922X

O‘ZBEKISTON:

TIL VA MADANIYAT

UZBEKISTAN:

LANGUAGE AND CULTURE

2026 Vol. 1

tsuull.uz

uzlc.tsuull.uz

Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti

Bosh muharrir: Shuhrat Sirojiddinov

Bosh muharrir o‘rinbosari: Nozliya Normurodova

Mas’ul kotib: Ozoda Tojiboyeva

Tahrir kengashi

Hamidulla Dadaboyev, Mustafo Bafoyev, Samixon Ashirboyev, Nurboy Jabborov, Farhod Maqsudov, Adham Ashirov, Zohidjon Islomov, Bahodir Karimov, Saodat Muhamedova, Aftondil Erkinov, Dilorom Ashurova, Uzoq Jo‘raqulov, Zulxumor Xolmanova, Ziyoda Teshaboyeva, Dilnavoz Yusupova, Iroda Azimova, Sulton Normamatov, Zulxumor Ortiqova, Botir Elov, Komil Kalonov, Manzura Abjalova, Rasul Atamurodov

Tahrir hay’ati

Nazef Shahrani (AQSH)
Elizabetta Ragagnin (Italiya)
Ahmadali Asqarov (O‘zbekiston)
Isa Habibbeyli (Ozarbayjon)
Akmal Nur (O‘zbekiston)
Almaz Ülvi (Ozarbayjon)
Muzaffar Komilov (O‘zbekiston)
Tanju Seyhan (Turkiya)
Akmal Saidov (O‘zbekiston)
Alizoda Saidumar (Tojikiston)
Nikolas Kantovas (Buyuk Britaniya)
Shodmon Vohidov (Tojikiston)

“O‘zbekiston: til va madaniyat” jurnali – lingvistika, tarix, adabiyot, tarjimashunoslik, san’at, etnografiya, falsafa, antropologiya va ijtimoiy tadqiqotlarni o‘rganish kabi sohalarni qamrab olgan akademik jurnal.

Jurnal bir yilda to‘rt marta chop etiladi.

Jurnalning maqsadi – ko‘rsatilgan sohalarga oid dolzarb mavzulardagi bahs-munozaraga undaydigan, yangi, innovatsion g'oyalarga boy, o‘z konsepsiyasiga ega bo‘lgan tadqiqotlarni nashr etishdir.

Ingliz, rus va o‘zbek tillaridagi, shuningdek, boshqa turkiy tillarda yozilgan maqolalar qabul qilinadi. Iqtisodiy tahlillar hamda siyosatga oid maqolalar e’lon qilinmaydi.

Jurnalda kitoblarga yozilgan taqrizlar, adabiyotlar sharhi, konferensiyalar hisobotlari va tadqiqot loyihalari natijalari ham e’lon qilinadi. Mualliflar fikri tahririyat nuqtayi nazaridan farq qilishi mumkin.

Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti.

O‘zbekiston, Toshkent, Yakkasaroy tumani, Yusuf Xos Hojib ko‘chasi, 103.

Email: uzlangcult@gmail.com
Website: www.uzlc.tsuull.uz

Alisher Navoʻi Tashkent State University of the Uzbek Language and Literature

Editor-in-Chief: Shuhrat Sirojiddinov

Deputy Editor in Chief: Nozliya Normurodova

Executive secretary: Ozoda Tajibaeva

Editorial board

Hamidulla Dadaboyev, Mustafo Bafoev, Samikhon Ashirboev, Nurboy Jabborov, Farhod Maksudov, Adham Ashirov, Zohidjon Islomov, Bahodir Karimov, Saodat Muhamedova, Aftondil Erkinov, Dilorom Ashurova, Uzak Jurakulov, Zulkhumor Khalmanova, Ziyoda Teshaboeva, Dilnavoz Yusupova, Iroda Azimova, Sulton Normamatov, Zulkhumor Ortikova, Botir Elov, Komil Kalonov, Manzura Abjalova, Rasul Atamurodov

Editorial Committee

Nazif Shahrani (USA)
Elisabetta Ragagnin (Italy)
Ahmadali Asqarov (Uzbekistan)
Isa Habibbeyli (Azerbaijan)
Akmal Nur (Uzbekistan)
Almaz Ülvi (Azerbaijan)
Muzaffar Komilov (Uzbekistan)
Tanju Seyhan (Turkey)
Akmal Saidov (Uzbekistan)
Alizoda Saidumar (Tajikistan)
Nicholas Kontovas (Great Britain)
Shodmon Vohidov (Tajikistan)

"Uzbekistan: Language and Culture" is an academic journal that publishes works in the field of linguistics, history, literature, translation studies, arts, ethnography, philosophy, anthropology and social studies.

The journal is published four times a year.

The purpose of the journal is to publish the results of the latest research that are rich in new, innovative ideas and has its own concept, which stimulates debate on topical issues in these areas.

The language of articles can be English, Russian and Uzbek. Other Turkic languages are also welcome. We do not publish economic analyses or political articles.

In addition to research articles, the journal announces book and literary work reviews, conference reports and research project results.

The authors' ideas may differ from those of the editors'.

Alisher Navoʻi Tashkent State University of the Uzbek Language and Literature.

103, Yusuf Khos Hojib, Yakkasaray, Tashkent, Uzbekistan.

Email: uzlangcult@gmail.com
Website: www.uzlc.tsuull.uz

MUNDARIJA

LINGVISTIKA

Munavvara Qurbonova
Bolalar nutqida emotsional deyksisning voqelanishi 6

Nurbek Ahmadjonov
O‘zbek va nemis rahbar-muloqot diskursida nutq odobi va uning lingvistik aspektlari 24

Aynel Mashadiyeva
Turkiy tillar va dialektlardagi sifatdoshlarning qiyosiy-tarixiy tadqiqi 41

Firuz Abdusalomov
Zamonaviy media diskursida harbiy leksikaning semantik transformatsiyasi 58

Elnare ALİYEVA
Türk Dillerinde İsimlerde Çoğulluğun Bazı Özellikleri 71

ADABIYOTSHUNOSLIK

Almaz Ülvi BİNNƏTOVA
Ensiklopedik Təfəkkürə Malik Mənəviyyat Memarı (İsrafil Məmmədovun “Uç, göyərçinim, uç” əsəri haqqında ədəbi qeydlər).....83

Mohida Qodirova
Tarixiy manbadan badiiy talqinga: Esondavlat begim obrazining ingliz tarixiy romanlaridagi interpretatsiyasi 95

TARJIMASHUNOSLIK

Yorkinoy Nasirdinova
“La Fermeté des faibles” – So‘fi Olloyorning “Sabot ul-ojizin” pandnoma asarining ilk fransuzcha tarjimasi.....107

Ilhom Xolmuminov
Badiiy hikoya tarjimasining kognitiv mexanizmlari va paradigmatik modellashtirish 119

SOTSIOLOGIYA

Komil Kalanov
Sun’iy intellekt texnologiyalarining sotsiologik diskurs tahlili 133

ETNOLOGIYA. ETNOGRAFIYA. ANTROPOLOGIYA

Adhamjon Ashirov
Samarqand bozorlari tarixi va o‘ziga xos xususiyatlari 156

CONTENT

LINGUISTICS

Munavvara Kurbanova
The realization of emotional deixis in children's speech 6

Nurbek Ahmadjonov
Speech Etiquette and its Linguistic Expression in Uzbek and German Leadership-Communication Discourse 24

Aynel Mashadieva
Participles in Focus: a Comparative-Historical Study in Turkic Languages and Dialects 41

Firuz Abdusalomov
Semantic Transformation of Military Lexicon in Contemporary Media Discourse 58

Elnare ALİEVA
Particular Features of Noun Pluralization in Turkic Languages 71

LITERATURE

Almaz Ulvi BİNNATOVA
Encyclopedic Thinking and the Artistic Representatıon of Spiritual Memory (Literary notes on Israfil Mammadov's work "Fly, my dove, fly").....83

Mohida Qodirova
From Historical Source to Artistic Interpretation: the Portrayal of Esondavlat Begim in English Historical Novels.....95

TRANSLATION STUDIES

Yorkinoy Nasirdinova
"La Fermeté des faibles": The First French Translation of Sufi Olloyor's Didactic Work *Sabot ul-ojizin*.....107

Ilhom Kholmuminov
Cognitive Mechanisms and Paradigmatic Modeling of Literary Translation.....119

SOCIOLOGY

Komil Kalanov
Sociological Discourse Analysis of Artificial Intelligence Technologies .133

ETHNOLOGY. ETHNOGRAPHY. ANTHROPOLOGY

Adhamjon Ashirov
The History and Distinctive Features of Samarkand Markets 156

ISSN 2181-922X 83—94

ADABIYOTSHUNOSLIK
LITERATURE

Ensiklopedik Təfəkkürə Malik Mənəviyyat Memarı

(İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" əsəri haqqında ədəbi qeydlər)

Almaz Ülvi BİNNƏTOVA[1]

Özet

Məqalədə yazıçı-publisist, tarixçi alim İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" kitabının ideya-məzmun və bədii-estetik xüsusiyyətləri geniş şəkildə təhlil edilir. Müəllifin povest, hekayə, fəlsəfi-publisistik yazı və miniatürlərində milli-mənəvi dəyərlərin, vətən yaddaşının, insan mənəviyyatının və humanist ideyaların ifadə formaları araşdırılır. "Mehdi əminin atı" və "Mir Abdullanın iti – Alabaş" əsərlərində sədaqət, mərhəmət, vicdan və insan-təbiət münasibətlərinin dərin fəlsəfi çalarlarla təqdim olunduğu göstərilir. "Uç, göyərçinim, uç" hekayəsində isə müharibənin uşaqların taleyində buraxdığı izlər, sülh arzusu və ümumbəşəri humanizm ideyaları ön plana çəkilir. Məqalədə həmçinin "Kainata bizim münasibətimiz" əsəri əsasında müəllifin elm, təbiət və kainata münasibəti şərh olunur, onun ensiklopedik dünyagörüşü və publisistik üslubu səciyyələndirilir. Tədqiqat nəticəsində İsrafil Məmmədovun yaradıcılığının yalnız bədii-estetik deyil, həm də milli yaddaşın qorunmasına xidmət edən mühüm mənəvi-ideoloji əhəmiyyət daşıdığı qənaətinə gəlinir.

Açar sözlər: *İsrafil Məmmədov, "Uç, göyərçinim, uç", mənəviyyat, ensiklopedik təfəkkür, publisistika, sülh ideyası, vətən yaddaşı, humanizm, Azərbaycan ədəbiyyatı, fəlsəfi düşüncə.*

Giriş

Yazıçı-pulisist, tarix elmi üzrə tanınmış alim İsrafil Məmmədov Azərbaycan mədəniyyəti və elmi mühitində nadir rast gəlinən çoxşaxəli simalardan biridir. O, təkcə bir *tarixçi-alim* və ya *qocaman jurnalist* deyil, həm də sözün həqiqi mənasında bir *mənəviyyat*

[1] *Binnətova Almaz Ülvi Qasım q. – filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi, əlaqələr" şöbəsinin müdiri, Özbəkistan Respublikasının "Dostluq" ordeni mükafatçısı,*
E-mail: *ulvialmaz@gmail.com*
ORCİD İD – 0000-0001-7991-3969
Alıntı için: Binnətova, A. Ü. 2026. "Ensiklopedik təfəkkürə malik mənəviyyat memarı *(İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" əsəri haqqında ədəbi qeydlər)". Özbekistan: Dil ve Kültür* 1: 83 – 94.

memarıdır. Onun yaradıcılıq yoluna və şəxsiyyətinə nəzər saldıqda, qarşımızda sadəcə bir yazıçı deyil, həm də *ensiklopedik təfəkkürə malik bir ziyalı* obrazı canlanır. İsrafil Məmmədov hər şeydən əvvəl bir elm adamıdır. Yaradıcılığının təməlini Qərbi Azərbaycanın (İrəvan, Zəngəzur, Vedibasar) tarixi, mədəniyyəti və toponimikası təşkil edir [Məmmədov 2003, 14–28]. O, arxivlərin tozlu rəflərində qalan həqiqətləri bədii dilə çevirərək xalqın yaddaşına qaytaran bir *yaddaş keşikçisidir* [Məmmədov, 2098, 3–50]**.** O, itirilmiş yurd yerlərinin səsalarını kağız üzərinə köçürərək onları sadəcə coğrafi məkan olmaqdan çıxarıb, millətin diri yaddaşına çevirmişdir [Məmmədov, 2004, 3-318]. Onun toponimlər, yer adları haqqındakı fəlsəfi yanaşması *("İnsanlar nəyi bilmişlər, nələri unutmuşlar?!")* bir tədqiqatçının soyuq faktlarından daha çox, bir vətənpərvərin yanğılı harayıdır.

İsrafil Məmmədovun qələmi jurnalistikanın gətirdiyi müşahidə qabiliyyəti ilə yazıçılığın gətirdiyi duyğusallığın vəhdətidir, hadisələrə sadəcə kənardan baxmır, o, ağrını və sevinci öz içindən keçirərək yazır. Bu xüsusiyyət onun hər bir povest və hekayəsini, esse və miniatürünü oxucu üçün doğmalaşdırır. Bu əsərlərin təhlili göstərir ki, İsrafil Məmmədov yaradıcılığı Azərbaycan nəsrində memorial yaddaş, milli identiklik və mənəvi-estetik düşüncə problemlərinin bədii transformasiyası baxımından xüsusi nəzəri maraq doğurur. Müəllifin əsərlərində publisistik diskursla bədii təhkiyənin sintezi müşahidə edilir ki, bu da onun yaradıcılığını sinkretik poetik model kimi xarakterizə etməyə imkan verir.

Əsas hissə

Yazıçının "Uç, göyərçinim, uç" [Məmmədov 2019, 3 – 270] kitabı oxucunu İrəvanın küçələrindən Şuşanın dumanlı dağlarına, bir atanın övlad həsrətindən kainatın fəlsəfi dərinliklərinə qədər aparan bir mənəvi körpüdür. Kitab iki **–** "Mehdi əminin atı", "Mir Abdullanın iti – Alabaş" povestlə açılır. Hər iki əsərin adında ev heyvanları – insanların ən etibarlı dostları olan at və it obrazları ilə rastlaşırıq.

Hekayəyə məhz *"Mehdi əminin atı"* [Məmmədov 2019, 4–24] adının verilməsi təsadüfi deyil və dərin simvolik mənaya malikdir. Bu ad göstərir ki, at sadəcə bir heyvan deyil, Mehdi əminin şəxsiyyətinin bir parçasıdır. Kənddə onları heç vaxt bir-birindən ayrı təsəvvür etmirdilər. At öz sahibinin xarakterini – onun sakitliyini, xeyirxahlığını və işinə olan sədaqətini mənimsəmişdi. Ad onları vahid bir simvolda birləşdirir. Atın adı yoxdur, o, sadəcə sahibinin

adı ilə tanınır. Bu da heyvanın öz taleyini tamamilə sahibinə və onun xidmət etdiyi insanlara bağladığını göstərir. Adın sadəliyi müəllifin realistik üslubundan xəbər verir. İsrafil Məmmədov bu ad altında əslində böyük bir insanlıq dramını – müharibə dövrünün çətinliklərini, arxa cəbhədəki insanların ümidlərini və bir ailənin (Mehdi əmi, Vəli və hətta o atın) keçdiyi yolu təsvir edir. Mehdi əmi dünyasını dəyişdikdən sonra atın öz "adını" (yəni kimə mənsub olduğunu) itirməsi və yəhərsiz-yüyənsiz qalması hekayənin ən təsirli və faciəvi məqamıdır.

Mehdi əmi sağ olduğu müddətdə bu at "hökumət atı" idi, hörmətli və lazımlı idi. O, sahibinin insanlara olan ehtiramını təqlid edərək "gülürdü" (dişlərini göstərirdi). Ad onu vurğulayır ki, bu heyvanın bütün "insanlığı" və alicənablığı məhz Mehdi əminin ona verdiyi dəyərdən qaynaqlanırdı. Mehdi əmi vəfat etdikdən sonra at artıq "Mehdi əminin atı" statusunu itirir. Yeni nəsil (oğlu Vəli) üçün o, sadəcə "işə yaramayan qoca bir heyvan"a çevrilir. Adın belə seçilməsi diqqəti ona çəkir ki, bir insan gedəndə, onun ətrafına bəxş etdiyi ruh və məna da onunla birlikdə yox olur. Mehdi əmi və onun atı köhnə dünyanın – sədaqətin, təmkinin və mərhəmətin nümayəndələridir. Müəllif bu adla onları yeni dövrün sərt və praqmatik yanaşmasına qarşı dayanan ayrı bir mənəvi dünya kimi təqdim edir.

İsrafil Məmmədov hekayəni belə adlandırmaqla sıravi bir heyvanı insanlığın və vəfanın abidəsinə çevirmişdir. Mehdi əmisiz bu atın varlığı mənasızlaşır, bunu hekayənin sonunda atın yəhərsiz-yüyənsiz, tənha qalması ilə aydın görürük [Məmmədov 2002, 3–210]. "Mehdi əminin atı" povestində heyvan obrazının semantik funksiyası yalnız məişət detalı ilə məhdudlaşmır; burada at obrazı kollektiv yaddaşın və mənəvi davamlılığın simvolik göstəricisi kimi çıxış edir. Müəllif antropomorfizmdən istifadə etməklə insan və təbiət münasibətlərini etik-fəlsəfi müstəvidə təqdim edir.

"Mir Abdullanın iti" [Məmmədov 2019, 25–68] *adlı h*ekayədə Zəngəzurun Miğri rayonunun Lök kəndində yaşayan Mir Abdulla adlı ağsaqqal, hörmətli və nurani bir şəxs və onun sadiq iti Alabaşdan bəhs edilir. Alabaş qeyri-adi fəhmi olan, kənddəki hadisələri qabaqcadan duyan, insanları təhlükədən (seldən, vəhşi heyvandan) qoruyan bir itdir. *"İt sahibinə çəkər"* prinsipi ilə, Alabaş Mir Abdullanın daxili dünyasının, ədalətinin və mənəvi saflığının heyvan cildindəki təzahürüdür. Ömrünün sonunda Alabaş heç kimi narahat etməmək üçün, özünü elə dəfn edir ki, Mir Abdullanın həyətində "ölü leşi" qalmasın, ailəyə ağırlıq olmasın, kənddən uzaqda, çay kənarında özü üçün "təbii bir qəbir" tapır və torpağın altında səssizcə yox

olur. Bu ləyaqətli davranış onun məhz Mir Abdulla kimi bir insanın tərbiyəsini (enerjisini) aldığını göstərir.

Hekayədə Alabaş sadəcə bir heyvan deyil, Mir Abdullanın ocağının ayrılmaz bir hissəsi, evin keşikçisi kimi təqdim olunur. Onu "Mir Abdullanın iti" adlandırmaqla müəllif bu canlının həmin ailəyə olan *mənəvi bağlılığını* vurğulayır. Bu ad sadəcə sahiblik bildirmir, eyni zamanda *vəfa, ləyaqət və eyni ruhu paylaşmaq* rəmzidir. O, bu evin sirrini qoruyan, dostunu-düşmənini seçən bir varlıqdır. Hekayənin sonunda bəlli olur ki, Alabaş Mir Abdullanın ailəsinə qarşı gizli də olsa mənfi niyyəti olanları (Murad və Barat kimi) hiss edir və onları qapıya buraxmır. Yəni it, sahibinin *hiss edib dilinə gətirmədiklərini* hərəkətləri ilə icra edir. "Mir Abdullanın iti" ifadəsi burada həm də "Mir Abdullanın vicdan keşikçisi" mənasını verir. Yazıçı İsrafil Məmmədov bu əsər vasitəsilə bir neçə mühüm mesaj vermək istəyir – Alabaş obrazı vasitəsilə heyvanların da mənliyinin, qürurunun və ən əsası sonsuz sədaqətinin olduğunu göstərir. İnsanın təbiətdən qopmamalı olduğunu, heyvanların dilini anlamasaq da, onların hisslərinə hörmətlə yanaşmalı olduğumuzu vurğulayır. Hekayənin içindəki Mir Abdullanın ailə faciəsi (qardaşının erməni quldurları tərəfindən öldürülməsi, müharibə itkiləri) vasitəsilə millətin acı tarixini və itirilmiş yurd yerlərinin həsrətini xatırladır.

Əsərin fəlsəfəsi çox dərindir – Alabaş danışa bilmir, amma hər şeyi duyur. Bu, kainatın özünün də dilsiz bir dili olduğunun rəmzidir. Bəzən ən böyük həqiqətlər sözlərlə deyil, hərəkətlərlə ifadə olunur. Alabaşın özünə qəbir axtarması və səssizcə gedişi, "ölməyi bacarmaq" fəlsəfəsidir. Müəllif bunu insanların (xüsusilə tarixdə kəfənsiz, qəbirsiz qalanların) taleyi ilə müqayisə edərək, ləyaqətli gedişin önəmini göstərir. Alabaşın Murad və Baratı həyətə buraxmaması, onların vaxtilə etdiyi mənəvi səhvlərə (elçilik məsələsi və ya yazılmış amma göndərilməmiş "donos") qarşı bir növ "vicdan keşikçisi" funksiyasını yerinə yetirməsidir. Bu, xəyanətin və pisliyin təbiət tərəfindən də qəbul edilmədiyini simvolizə edir. *Bununla da yazıçı* Alabaşın timsalında bizə deyir ki, dünya yalnız insanlardan ibarət deyil və biz ətrafımızdakı hər bir canlıya qarşı diqqətli, vicdanlı və mərhəmətli olmalıyıq [Məmmədov, 2009, 3-160]. Əsərdə Alabaş obrazı arxetipik sədaqət modelini təcəssüm etdirir. Yazıçı burada zoonarrativ elementlərdən istifadə etməklə mənəvi dəyərlərin deqradasiyası fonunda vicdan, etibar və daxili təmizlik məsələlərini ön plana çıxarır. Bu baxımdan əsər ekohumanitar düşüncə kontekstində də təhlilə cəlb oluna bilər.

Povestlərdən sonra müəllifin həm də kitabına verdiyi ad – *"Uç,*

göyərçinim, uç..." [Məmmədov 2019, 68–75] hekayəsini oxuyuruq. Sülh, müharibənin ağrıları və uşaqların gələcəyə olan ümidi haqqında çox təsirli bir əsərdir. Hekayənin mərkəzində dayanan göyərçin obrazı sadəcə bir quş deyil, uşaqların dünyaya çatdırmaq istədiyi sülh mesajının daşıyıcısıdır. Hekayədəki balaca Xatirə göyərçin şəkli çəkir, Enriko isə məktubunu göyərçinin dimdiyində təsəvvür edir. "Uç, göyərçinim" ifadəsi bu uşaqların saf duyğularının, müharibəsiz dünya arzularının simvolik qanadlanmasıdır. Müəllif uşaqların məktublaşmasına əsasən göstərir ki, dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün uşaqların arzusu eynidir: Atasız qalmamaq və qorxusuz böyümək. Hekayənin ən dramatik hissəsi Azərin taleyidir. Müharibə vaxtı basdırılmış minanın partlaması nəticəsində gözlərini itirən bu uşaq, müharibənin bitməsindən illər keçsə də, onun buraxdığı "minaların" hələ də canlar yandırdığını simvolizə edir. Azərin atasının şəklini görmək üçün keçirdiyi sarsıntı və həyəcan, müharibənin bir nəslin taleyini necə qaraltdığını göstərir. İlham müəllim və Ülviyyə xala müharibəni görmüş, onun ağrılarını dadmış nəsli təmsil edir. Onlar Xatirə kimi uşaqların bu həvəsini, sülh çağırışlarını dəstəkləməklə, gələcək nəsillərin eyni faciələri yaşamamasını arzulayırlar. Ülviyyə xalanın "göyərçini vurmaq günahdır" deməsi həm dini, həm də bəşəri dəyərlərin sülhə xidmət etdiyini vurğulayır. Hekayədə İtaliyadakı Enriko ilə Azərbaycandakı Xatirə və Azərin taleləri birləşir. Xirosima və Naqasaki kimi atom faciələrinin xatırlanması isə müəllifin sülh çağırışının lokal deyil, qlobal bir xarakter daşıdığını göstərir. [Məmmədov 2012, 3–77].

Hekayə 1982-ci ildə – "Soyuq müharibə"nin hələ də hiss olunduğu bir dövrdə yazılsa da, bu gün də öz aktuallığını qoruyur. Müəllif oxucuya çatdırır ki, sülh uşaqların ən təbii haqqıdır və böyüklərin, dövlətlərin əsas vəzifəsi bu sülhü qorumaq, lüğətlərdən "müharibə" sözünü silib yerinə "Sülh" yazmaqdır. Əsərin sonunda İlham müəllim və Xatirənin birlikdə yazdıqları məktub məhz bu sözlərlə başlayır: *"Uç, göyərçinim, qanad çal, uç, car çək, aləmə de ki..."*. Bu, hekayənin kulminasiya nöqtəsidir və müəllif bu ifadəni başlıq seçməklə əsərin əsas ideyasını (sülh çağırışını) ön plana çıxarıb. Hekayə *"Sovet Ermənistanı"* (o dövrdə Ermənistanda yaşayan azərbaycanlıların əsas mətbu orqanı) qəzetində çap olunub. Bu, Azərbaycan publisistikasının həm də güclü bədii təsir gücünə malik olduğunu, mühüm ictimai məsələləri hekayə dili ilə xalqa çatdırdığını göstərir. İsrafil Məmmədovun bu hekayəsi Azərbaycan uşaq ədəbiyyatında və publisistikasında bir neçə mühüm cəhətinə görə xüsusi yer tutur [Məmmədov 2003, 3–700]. Hekayənin

poetik strukturu müharibə diskursunun uşaq psixologiyası üzərində yaratdığı travmatik təsirlərin bədii interpretasiyasına əsaslanır. Göyərçin obrazı isə semiotik baxımdan sülh, ümid və transsərhəd humanizm ideyalarının simvolik kodu kimi çıxış edir. Müəllif uşaqların düşüncə dünyasını təqdim etməklə müharibənin antropoloji nəticələrinə diqqət yönəldir.

Publisist İsrafil Məmmədovun *"Kainata bizim münasibətimiz"* [Məmmədov 2019, 76–85] adlı fəlsəfi-publisistik məqaləsi insanın kainatdakı yeri, elmi dərketmənin əhəmiyyəti və mənəvi məsuliyyəti haqqında dərin düşüncələrin yekunudur. Müəllifin bu hissədəki əsas ideyalarını belə qruplaşdıra bilərik. Yazıçı kainatı və təbiəti *"Ana"* obrazı ilə eyniləşdirir. Bu, təsadüfi deyil. Ana həyatın mənbəyi olduğu kimi, kainat da bütün varlıqların anasıdır. Müəllif Hötedən sitat gətirərək vurğulayır ki, əgər təbiətin ən böyük ixtirası həyatdırsa, həyatın özünün mənası anadır. Kainatı dərk etmək üçün ona soyuq bir elmi obyekt kimi deyil, bir övladın anasına duyduğu *məhəbbət və hörmətlə* yanaşmalıyıq. Məqalədə biologiya, fizika və tibb kimi elmləri öyrənmək sadəcə bilik toplamaq deyil, *"əhdinə vəfalı övlad"* olmaq kimi təqdim edilir. Müəllif hesab edir ki, kainatın sirlərini öyrənmək bizim təbiət qarşısında mənəvi borcumuzdur. Sədaqətli övlad anasını tanıdığı kimi, ləyaqətli insan da yaşadığı dünyanı və kainatı tanımalıdır. Müəllif qeyd edir ki, təbiətə və kainata münasibətimiz bizim *mədəniyyət səviyyəmizi* göstərir. Təbiəti qorumaq və onu anlamağa çalışmaq yüksək mədəniyyətin göstəricisidir. İnsan kainat sirlərinə vaqif olduqca həm daxilən zənginləşir, həm də ətraf mühitlə harmoniyada yaşamağı öyrənir. Əsərin 1984-cü ildə yazılmasına baxmayaraq, orada vurğulanan *ekoloji və humanitar baxış* bu gün daha aktualdır. O dövrün elmi nikbinliyi ilə mənəvi dəyərlərin sintezi müəllifin yaradıcılığının əsas xəttidir.

İsrafil Məmmədov bu əsəri ilə oxucunu kainata qarşı daha həssas, daha elmli və daha vəfalı olmağa səsləyir. Biz kainatın "ağası" deyil, onun "övladı"yıq və bu övladlıq borcumuz kainatı öyrənmək və sevməkdir. Məqalədə diqqəti cəlb edən əsas məqamlardan biri müəllifin elmi idrakla mənəvi məsuliyyət anlayışını paralel şəkildə təqdim etməsidir. Bu yanaşma XX əsr humanitar düşüncəsində formalaşan kosmizm və ekoloji humanizm nəzəriyyələri ilə müəyyən paralellik təşkil edir.

İsrafil Məmmədovun bu kitabındakı *miniatürlərin* [Məmmədov 2019, 86–97] ümumi qayəsi *insan mənəviyyatının mikroskopik təhlilidir.* Müəllif kiçik həcmli mətnlərlə böyük

həqiqətləri, cəmiyyətin görünməyən yaralarını və insan xarakterinin incəliklərini üzə çıxarır. Bu miniatürlərin əsas qayəsini bir neçə bənddə ümumiləşdirmək olar. Müəllif vəzifəpərəstlik *("Başından ayrılarsan"),* nankorluq *("Bəs Əli?")* və süni şöhrət həvəsi *("Səfər də qəzet* açdı") kimi mənfi halları tənqid edir. O, cəmiyyətdəki "yalançı dəyərləri" ifşa edərək, insanları saxtakarlıqdan uzaq durmağa çağırır. *"Bədbəxt Cəfər"* [Məmmədov 2019, 91–92] kimi çox qısa mətnlərdə müəllif bir cümlə ilə bir insanın bütün ömrünün ağrısını verir. Burada məqsəd oxucunu həyatın amansız təsadüfləri üzərində düşünməyə sövq etmək və *insan taleyinə həssaslıqla* yanaşmağı aşılamaqdır. *"Əyilin, qulağınıza bir söz deyim"* [Məmmədov 2019, 87–89] miniatüründə olduğu kimi, müəllif göstərir ki, dünya hələ də mərhəmət üzərində dayanır. O, ən çətin anlarda belə insan qalmağın, bir kimsəsiz uşağın qəlbinə toxunmağın hər şeydən uca olduğunu vurğulayır. *"Ağıllı yad adam"* [Məmmədov 2019, 92–95] hekayəsində müəllif göstərir ki, bəzən normal sayılan insanların həll edə bilmədiyi problemləri bir "dəli" həll edə bilir. Burada qayə *həqiqətin bəzən ən gözlənilməz yerdə* olduğunu bildirməkdir. Müəllif hər bir miniatürü xalq hikmətləri, atalar sözləri üzərində qurur. O, bu hikmətləri müasir həyat situasiyalarına gətirərək, milli mənəvi dəyərlərin hər zaman aktual olduğunu sübut edir.

Kitabda təqdim edilən "Səfər də qəzet açdı" [Məmmədov 2019, 86–87], "Əyilin, qulağınıza bir söz deyim", "Başından ayrılarsan" [Məmmədov 2019, 89-90], "Bədbəxt Cəfər", "Ağıllı yad adam", "Dayım da vaxt tapdı" [Məmmədov 2019, 95], "Bəs Əli?" [Məmmədov 2019, 96], "Budur, göndərdiyiniz şəkildəki" adlı *miniatürlərin* fəlsəfi anlamı oxucunu *yuxudan oyatmaq,* ona ətrafındakı hadisələrə daha dərindən baxmağı öyrətmək və "insan" olmağın məsuliyyətini xatırlatmaqdır. Miniatürlərdə lakonik təhkiyə forması vasitəsilə sosial-psixoloji tipajların ümumiləşdirilməsi müşahidə olunur. Müəllif azhəcmli mətn daxilində böyük semantik yük formalaşdıraraq klassik Şərq nəsihətnamə ənənəsi ilə müasir publisistik düşüncə arasında estetik əlaqə yaradır.

İsrafil Məmmədovun "Ötənlərin-keçənlərin sədaları" [Məmmədov 2019, 98–124] bölməsi müəllifin həm bir ziyalı, həm də bir ata və tədqiqatçı kimi mənəvi dünyasının yekunudur. Bu bölmədə "İrəvan millət vəkili, xalq artistinə açıq məktub", "Yadulla dərviş", "Yaxşı adam varsa hələ", "Vəsiyyət", "Kədər möhürü", "Sükutun səsi", "Nekroloq əvəzi", "Şeirim yadındamı, yazmışdım sənə?", "Torpaqla olarmış, papaqla yox", "Bir damla kədər bir dərya sevinci bulandırar", "İnsanlar nəyi bilmişlər, nələri unutmuşlar?!"

adlı hekayələr toplanmışdır. Müəllif bu yazılarda real faktları bədii-fəlsəfi boyalarla birləşdirərək vahid bir yaddaş mənzərəsi yaradıb: *"İrəvan millət vəkili, xalq artistinə açıq məktub"da* [Məmmədov 2019, 98–101] müəllif vaxtilə dostluq etdiyi sənətkara müraciət edərək, onu milli ədavətə xidmət etdiyi üçün kəskin qınayır. O, sənətin və bəşəri dəyərlərin siyasi ambisiyalardan uca olduğunu Sabir Rzayev kimi ortaq ziyalıların nümunəsində xatırladır.

"Yadulla dərviş" [Məmmədov 2019, 101–105] adlı fəlsəfi alleqoriyada dərvişə zorla geyindirilən qızıl ayaqqabının ona verdiyi əzab təsvir olunur. Əslində burada əsərin fəlsəfəsi maddi zənginlik azadlıq və ruhun rahatlığı qarşısında heçdir. İnsan ömrü yaşadığı illərlə deyil, bəxtiyar olduğu günlərlə ölçülməlidir.

"Yaxşı adam varsa hələ" [Məmmədov 2019, 105–110] hekayədə didərginlik həyatı yaşayan bir qadının övladını işə düzəltmək üçün vicdanlı məmur Seyid Hüseynlə qarşılaşmasından bəhs edir. Əsas məqsəd isə vəzifəpərəstlik və rüşvətxorluğun hökm sürdüyü dünyada hələ də "insanlıq" və "kişilik" (ləyaqət) anlayışlarının diri qaldığını göstərməkdir.

Müəllifin *"Vəsiyyət"i* [Məmmədov 2019, 110-112] hələ 1984-cü ildə övladlarına yazdığı mənəvi tapşırıqlarıdır. Övladlarını dürüstlük, elmə bağlılıq, kökə (İrəvana) sədaqət və hər şəraitdə mərdlik nümayiş etdirməyə çağıran bir "həyat xəritəsi"dir.

Kitabın ən ağrılı səhifələrini dərin yaşantılarla baş-başa qalmaqla oxumaq mümkündür. *İlqar silsiləsi ("Kədər möhürü", "Sükutun səsi", "Nekroloq əvəzi", "Şeirim yadındamı...") adlandırdığımız* [Məmmədov 2019, 112–119] bu yazılar müəllifin gənc yaşda itirdiyi oğlu İlqarın xatirəsinə həsr olunmuş dərin hüznlü mətnlərdir. Təbiətin nizamının pozulması (atanın oğulu dəfn etməsi) və bu acının "ulduzlara dönən cavanlar" metaforası ilə əbədiləşdirilməsidir. Bu silsilədə biz İsrafil Məmmədovu hər şeyi dərk edən müdrik bir yazıçıdan daha çox, dərdini ulduzlarla paylaşan bir ata kimi görürük. Onun oğul itkisini kainatın nizamı ilə əlaqələndirməsi, yuxuda övladı ilə etdiyi "Nekroloq əvəzi" dialoqu Azərbaycan ədəbiyyatında kədərin ən ülvi təsvirlərindən sayılmalıdır.

"Torpaqla olarmış, papaqla yox" [Məmmədov 2019, 119–121] əsərində Şuşanın işğalı günü bir babanın nəvəsi ilə olan dialoqu fonunda papaq (şərəf) rəmzi təhlil olunur. Hekayə göstərir ki, torpağın itirilməsi böyük dərddir, lakin ləyaqətin və qürurun itirilməsi daha sarsıdıcıdır.

"Bir damla kədər bir dərya sevinci bulandırar" [Məmmədov 2019, 121–123] İrəvandakı Azərbaycan teatrının tarixinə, onun

təşəkkülünə dair elmi-publisistik baxışdır. Tarixi təhriflərin qarşısını almaq və Azərbaycan mədəniyyətinin İrəvandakı dərin köklərini arxiv sənədləri ilə sübut etmək əsərin əsas qayəsidir. "

"İnsanlar nəyi bilmişlər, nələri unutmuşlar?!" [Məmmədov 2019, 123–124] – Yer adlarının (toponimlərin) millətin yaddaşındakı yerindən bəhs edən ümumiləşdirici bir yazıdır. Yer adlarını unutmamaq – vətəni və tarixi mənsubiyyəti qorumaqdır. Müəllif üçün bu adlar xalqın "zindanda olan məhbuslarıdır" ki, onları ancaq elm və yaddaş xilas edə bilər.

Bölmənin adında olan *"Sədalar"* keçmişdən gələn və gələcəyə ötürülən mənəvi mesajlardır. İsrafil Məmmədovun bu bölmədəki fəlsəfəsinin əsasını *yaddaşsızlığa yox demək,* ləyaqəti hər şeydən uca tutmaq və tarixin hər bir daşında millətin ruhunu axtarmaq təşkil edir. Yazıçı düşüncəsi sübut edir ki, keçmiş sadəcə xatirə deyil, bu günümüzü inşa edən təməldir. İsrafil Məmmədovun nəzərində tarixə və insana münasibət bizim özümüzün kimliyimizi müəyyən edən ən böyük imtahandır.

İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" kitabı üzərindən etdiyimiz bu *"səyahət"* göstərir ki, biz sadəcə bədii bir mətnlə deyil, bütöv bir ömrün mənəvi hesabatı ilə qarşı-qarşıyayıq. O, bizə sübut edir ki, yazıçı olmaq təkcə hadisələri təsvir etmək deyil, həm də o hadisələrin səsini-sədasını gələcək nəsillərə çatdıran bir vicdan səsi olmaqdır. *"Uç, göyərçinim, uç"* – müəllifin sülhə, sevgiyə və yaddaşa doğru uçurduğu mənəvi bir mesajdır.

Kitabın sonunda oxucuya rus dilindən tərcümə etdiyi irihəcmli iki pyes – "Qarağaclar altında məhəbbət" (Yucin Onil), "Aləmlə üz-üzə" (Aleksandr Gelman) təqdim edilir.

"Qarağaclar altında məhəbbət" ("Desire Under the Elms") [Məmmədov 2019, 126–205] pyesin müəllifi Yucin O'nil *Amerika* yazıçısıdır. Bu faciə-əsərdə XIX əsrin ortalarında Yeni İngiltərədəki bir fermanın ətrafında cərəyan edən ailə dramından bəhs edilir. Pyesin mərkəzində torpaq və miras uğrunda amansız mübarizə, eyni zamanda bir-birinə zidd xarakterlərin toqquşması dayanır. Dramda əsas konfliktlər qəddarlıq və həlimlik, ağıl və hiss, kişi və qadın başlanğıcları arasındakı keçilməz ziddiyyətlər üzərində qurulub. Fermanın sahibi Efraim Kebotun sərtliyi, oğullarının (Simeon, Piter və İben) azadlıq axtarışı və gənc analıqları Abbi ilə yaşanan qadağan olunmuş məhəbbət hadisələri faciəvi sonluğa – körpə qatilinə və ailənin süqutuna aparıb çıxarır. Müəllif antik motivlərdən istifadə edərək bu məişət faciəsinə universal bir mahiyyət qazandırıb.

Aleksandr Gelman sovet cəmiyyətindəki mənəvi və ictimai

problemləri, sistem daxilindəki insan dramını ustalıqla təsvir edən tanınmış *rus dramaturqunun "Aləmlə üz-üzə"* [Məmmədov 2019, 206–268] əsəri vəzifə və uğur naminə mənəviyyatını itirən bir rəhbər işçinin törətdiyi saxtakarlıqlar nəticəsində şikəst qalan oğlunun acı ailə faciəsini əks etdirən gərgin psixoloji dramdır; əsər boyu ər və arvad arasında gedən "vicdan məhkəməsi" insanın öz uğuru üçün nələri qurban verə biləcəyi sualını ortaya qoyur.

Hər iki pyes Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində oynanılmışdır.

İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" kitabı itirilmiş yurd yerlərinin tarixi yaddaşını kövrək insan taleləri və dərin fəlsəfi miniatürlərlə birləşdirən mənəvi bir hesabatdır. Müəllif bu əsəri ilə oxucuya sübut edir ki, zaman və məkan dəyişsə də, insanı ayaqda saxlayan yeganə qüvvə onun köklərinə olan sədaqəti və hər şəraitdə qoruyub saxladığı ləyaqətidir.

Nəticə

Qeyd edək ki, "Uç, göyərçinim, uç" (Bakı, "Ecoprint", 2019, 272 səh.) kitabındakı bədii əsərlər müəllifin – tarixçi-alim, qocaman jurnalist, yazıçı İsrafil Məmmədovun qızı, "Uç, göyərçinim, uç" hekayəsinin qəhrəmanı, filologiya üzrə fəlsəfə doktoru Xatirə xanım Məmmədovanın redaktorluğu, Azər Abdulla, Tacir Səmimi (Qurbanov) və Vüsal Abiyevin birgə zəhmətləri ilə araya-ərsəyə gətirilmişdir.

Beləliklə, İsrafil Məmmədovun "Uç, göyərçinim, uç" kitabı yalnız bədii-estetik xüsusiyyətləri ilə deyil, həm də milli yaddaşın qorunması, mənəvi identikliyin bərpası və humanist düşüncənin təbliği baxımından mühüm nəzəri-ideoloji mətn kimi dəyərləndirilə bilər. Müəllifin yaradıcılığı Azərbaycan publisistikası ilə bədii nəsrin qarşılıqlı əlaqələrinin öyrənilməsi istiqamətində də aktual elmi material təqdim edir.

Ədəbiyyat

Məmmədov, İ. 2002. *İrəvan dəftəri* (I hissə). İctimai fikir tariximizin qəribsəyən üfüqləri Bakı, Adiloğlu.

Məmmədov, İ. 2004. *İrəvan dəftəri* (II hissə). Sətirlənmiş duyğuların qəribsəyən sədası, Bakı, Adiloğlu.

Məmmədov, İ. 2009. *İrəvan dəftəri* (III hissə). Teatr tariximizdən səhifələr: Deportasiya, qaçqınlıq, mənəvi soyqırımı tarixindən. Bakı, Qismət.

Məmmədov, İ. 2012. *Ömür yarpağı*. Bakı, Maarif.

Məmmədov, İ., & Əsədov, S. 1998. *Zəngəzur qartalı*. Bakı,Gənclik.

Məmmədov, İ., 2003. *Tariximiz, torpağımız, taleyimiz.* Bakı, Adiloğlu,

Məmmədov, İ., 2019. Uç, göyərçinim, uç. Bakı, "Ecoprint".

Encyclopedic Thinking and Artistic Representation of Spiritual Memory

(Literary notes on Israfil Mammadov's work "Fly, my dove, fly")

Almaz Ulvi BİNNATOVA[1]

Abstract

The article provides a comprehensive analysis of the ideological, thematic and artistic features of Israfil Mammadov's book Fly, My Dove, Fly. It examines the author's treatment of spirituality, national memory, war tragedies, humanism and moral responsibility in his stories, essays and philosophical miniatures. Special attention is paid to the narratives "Uncle Mehdi's Horse" and "Mir Abdulla's Dog – Alabash," where the images of animals are used to express loyalty, compassion, conscience and the deep bond between humans and nature. The story Fly, My Dove, Fly is analyzed as a powerful literary reflection on the destructive consequences of war on children's lives and consciousness while the dove symbolizes peace, hope and universal human values. The article also discusses the philosophical-publicistic essay "Our Attitude Toward the Universe," highlighting the author's views on science, nature and humanity's spiritual connection with the cosmos. The study concludes that Israfil Mammadov's творчество possesses not only literary and aesthetic significance but also an important cultural and moral function in preserving national memory and ethical values.

Key words: *Israfil Mammadov, Fly, My Dove, Fly, spirituality, encyclopedic thinking, journalism, idea of peace, national memory, humanism, Azerbaijani literature, philosophical thought.*

References

Məmmədov, İ. 2002. *İrəvan dəftəri* (I hissə). İctimai fikir tariximizin qəribsəyən üfüqləri Bakı, Adiloğlu.

Məmmədov, İ. 2004. *İrəvan dəftəri* (II hissə). Sətirlənmiş duyğuların qəribsəyən sədası, Bakı, Adiloğlu.

[1] *Almaz Ulvi Binnetova* – Doctor of Philology, Head of the Department of "Azerbaijan-Turkmenistan-Uzbekistan Literary Relations" of the Institute of Literature named after Nizami Ganjavi of ANAS, Laureate of the Order of "Friendship" of the Republic of Uzbekistan.

E-mail: ulvialmaz@gmail.com

ORCID ID – 0000-0001-7991-3969

For citation: Binnetova, A. U. 2026. "Encyclopedic Thinking and Artistic Representation of Spiritual Memory (Literary notes on Israfil Mammadov's work "Fly, my dove, fly")". *Uzbekistan: Language and Culture* 1: 83 – 94.

Məmmədov, İ. 2009. *İrəvan dəftəri* (III hissə). Teatr tariximizdən səhifələr: Deportasiya, qaçqınlıq, mənəvi soyqırımı tarixindən. Bakı, Qismət.

Məmmədov, İ. 2012. *Ömür yarpağı*. Bakı, Maarif.

Məmmədov, İ., & Əsədov, S. 1998. *Zəngəzur qartalı*. Bakı,Gənclik.

Məmmədov, İ., 2003. *Tariximiz, torpağımız, taleyimiz.* Bakı, Adiloğlu,

Məmmədov, İ., 2019. Uç, göyərçinim, uç. Bakı, "Ecoprint".